**15-01-2009 04:48**
**MƏNBƏ: LENT AZ**

## İkinci dairəvi yol gələn ilin ortalarında istifadəyə veriləcək

### Tikinti işlərinə 500-ə yaxın işçi qüvvəsi, 200-dən çox yük avtomobili və texnika cəlb edilib

İkinci Bakı Dairəvi Yolunun tikintisi davam etdirilir. Hazırda yolun “Qurd qapısı” və “Lökbatan dairəsi” hissəsində torpağın bərkidilməsi işləri aparılır. Məqsəd torpaq sürüşmələrinin qarşısını almaqdır. Yolun kənarlarında istinad divarlarının tikilməsi də planlaşdırılır.

Nəqliyyat Nazirliyindən Lent.az-a bildiriblər ki, relyef baxımından mürəkkəb struktura malik ərazidə 2 yol ötürücüsü, piyada və avtomobil keçidi inşa olunur. Ərazidə qrunt və yağış sularının axıdılması və yolun təhlükəsizliyini təmin etmək üçün drenaj xətləri çəkilib. Həmçinin ərazidən keçən kommunikasiya xətləri dəyişdirilir. 6 zolaqlı yolun bir hissəsində isə asfalt örtüyününtikintisi başa çatıb.

Nəqliyyat Nazirliyinin sifarişi əsasında Türkiyənin “Mak-Yol İnşaat Sanayi Turizm və Ticaret” şirkəti ilə “Azərinşaatservis” MMC-nin birgə icra etdiyi tikinti işlərinə 500-ə yaxın işçi qüvvəsi, 200-dən çox yük avtomobili və texnika cəlb edilib. Tikinti işlərinin isə 2010-cu ilin ortalarında tam şəkildə başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, tikintisinə 2007-ci ilin ortalarında başlanılan “Bakı Dairəvi Yolu-2” layihəsi Biləcəri enişi, Tbilisi prospekti, “Qurd qapısı” və “Lökbatan dairəsi”ni əhatə edir. Uzunluğu 21,5 kilometr olan bu yolun 7 kilometrə qədəri 2 saylı qovşaq ərazisinə düşür.

Ümumiyyətlə isə bu yol həm də beynəlxalq əhəmiyyət daşıyır. Belə ki, Bakı-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu ilə Bakı-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun birləşdirilməsi halqasından ibarətdir.